

# İstiqlalın əbədiyyət sancağı – Azərbaycan bayrağı!

## 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikasında üçrəngli Azərbaycan bayrağı rəsmi Dövlət Bayrağı kimi qəbul edilmişdir

***Hər bir azərbaycanlının azadlıq eşqi, and yeri – barışda gül çələngi, savaşda qan yeri olan üçrəngli Azərbaycan bayrağı! İlk dəfə 1918-ci ildə dövlət rəmzi kimi təsis edilən bu bayraq Şərqdə ilk demokratik dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışı zamanı parlament binası üzərində qaldırılıb. Rəngləri türkçülük, müasirlik və islamçılıq ideyalarını əks etdirən bayrağımız iki ildən də az müddətdə orada öz uca məqamında dalğalandı, 1920-ci ildə sovet işğalından sonra endirildi və 70 ilə qədər yalnız millətsevər həmvətənlərimizin ürəklərində öz ucalığını qorudu. 1988-ci ilin 17 noyabrında Bakının Azadlıq meydanında yenidən dalğalanan bayrağımız bundan iki il sonra rəsmi olaraq, tarixdə ikinci dəfə Naxçıvanda yüksəldi. Həmin unudulmaz gündən düz 30 il keçir.***

Bakıda meydan hərəkatı dağıldıqdan sonra can verməkdə olan sovet hökumətinin azərbaycanlılara qarşı irəli sürdüyü əsas ittihamlarından biri məhz “əksinqilabi üçrəngli bayrağın qaldırılması” idi. Tifağı dağılan ittifaq başbilənləri bilmirdilər ki, tezliklə həmin bayraq əvvəl Naxçıvanda, sonra da Bakıda özünün rəsmi statusunu bərpa edəcək və bir daha enməyəcək.

Bəli, Azərbaycan dövlətçiliyinin əsas atributlarından olan üçrəngli, ay-ulduzlu bayrağımız tarixdə ikinci dəfə məhz qədim diyarımız olan Naxçıvanda yüksəldilib. Özü də görkəmli dövlət xadimi, unudulmaz dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə. O zaman Naxçıvanın muxtariyyətə malik olması Azərbaycan dövlətçiliyinin inkişafı, tarixi ənənələrin qorunub yaşadılması istiqamətində atılacaq növbəti əsaslı addımlar üçün əlverişli bir zəmin idi. Bu baxımdan 1990-cı il noyabrın 17-də ulu öndərin rəhbərlik etdiyi muxtar respublikada üçrəngli bayrağın rəsmi Dövlət Bayrağı kimi qəbul edilməsinə heç bir siyasi-hüquqi maneə törətmək mümkün olmamışdır.

Ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının muxtar respublikanın Dövlət Bayrağı kimi qəbul olunması təklif edilib. Dahi şəxsiyyətin özünün işləyib hazırladığı “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarın ilk bəndi bu redaktədə yazılmışdı: “İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin”. Ardınca isə Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzləri – Dövlət himni və gerbi haqqında məsələnin öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilməsi, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in Dövlət rəmzi kimi təsis edilməsi məsələsinin qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilməsi haqqında bəndlər vardı.

Bu qərar Naxçıvan MR Ali Məclisində yekdilliklə qəbul olunandan sonra yeni qəbul olunmuş Dövlət Bayrağı zala gətirilib. Ümummilli lider sonralar bu barədə deyib: “Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycanın milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən etdik. Hələ kommunist partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq”.

Müstəqilliyimizin bərpasından keçən dövr ərzində ölkəmizdə dövlət rəmzlərimizə, milli atributlarımıza hər zaman böyük sevgi ilə yanaşılıb. Dövlətçiliyimizin, milli dəyərlərimizin daşıyıcısı olan müqəddəs bayrağımıza ümummilli ehtiramın formalaşdırılması isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən milli siyasətin aparıcı istiqamətidir. Bayrağa xalq sevgisi 2007-ci ildə paytaxt Bakı şəhərində möhtəşəm Dövlət Bayrağı Meydanının yaradılması ideyasının reallaşdırılmasına gətirib çıxardı. Ölkə başçısının Azərbaycan bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildiyi gündə – 2009-cu il noyabrın 17-də imzaladığı tarixi sərəncamla təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza ən ali səviyyədə olan diqqətin ən yüksək göstəricisidir.

Dövlətimizin başçısı 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində tarixi dövlətçilik ənənələrinə ehtiramın əhəmiyyətini vurğulayaraq deyib: “Bildiyiniz kimi, Azərbaycan bayrağı, bizim üçrəngli bayrağımız 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsdiq edilmişdir. Məhz noyabrın 9-u Azərbaycanda bundan sonra hər il Azərbaycan Dövlət Bayrağı Günü kimi qeyd olunacaqdır. Hər iki sərəncamın məhz noyabrın 17-də imzalanmasının səbəbi də çox məntiqli və aydındır. Məhz 1990-cı il noyabrın 17-də ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Azərbaycanda Dövlət Bayrağı kimi qaldırıldı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda dövlət bayrağı kimi təsdiq edildi. Eyni zamanda, o vaxtkı Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı və tələb edildi ki, bu bayraq Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilsin.

O vaxt hələ Sovet İttifaqının dağılmasına bir ildən çox vaxt var idi. Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir...”

Azərbaycanın Moskvadan asılı olan o vaxtkı rəhbərliyi Naxçıvanın siyasi iradəsinin qarşısını kəsə bilməmiş, dövlət bayrağı orada qətiyyətlə rəsmiləşdirilmişdir. Nəhayət, 70 ildən sonra yenidən ilk dəfə Naxçıvanda qaldırılan üçrəngli bayrağımızın rəsmi məqamı Bakıda da bir daha özünün mötəbər təsdiqini almışdır. 5 fevral 1991-ci ildə bayraq həmin il müstəqilliyini elan etmiş Azərbaycan Respublikasının Ali Soveti tərəfindən təsdiq edilmişdir.

Xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini ehtiva edən üçrəngli bayrağımız milli qürurumuzdur. Noyabrın 17-nin Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi də qürur doğuran faktdır.

Hamımızın öpüb gözümüzün üstünə qoyduğumuz bayrağa ehtiram duyğularımız tükənməzdir. Fəxrlə xatırlayırıq ki, Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib. 20 min kvadratmetr ərazisi olan meydanda ucaldılmış dayağın hündürlüyü 162 metr, bünövrəsinin diametri 3,2 metrdir. Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və Azərbaycan xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

İndi artıq bizim üçrəngli bayrağımız Şuşada, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda və işğaldan yenicə azad olunmuş digər ərazilərimizdə də dalğalanır. Çox keçməz ki, bu bayraq Kəlbəcərdən, Ağdamdan, Laçından – bütün əzəli torpaqlarımızdan boy göstərər. Müzəffər Ali Baş Komandanımızın müdrik rəhbərliyi, yüksək siyasi iradəsi, rəşadətli Silahlı Qüvvələrimizin hünəri, başlıcası isə xalqımızın monolit birliyi sayəsində özünün halal haqqı olan zirvələri bir boy da ucaldan üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağı beləcə özünün ən bəxtəvər çağlarını yaşayır. 1990-cı ildə Naxçıvandan başlanan zəfər yürüşü ilə yenidən layiq olduğu uca məqamına çatan bayrağımız xalqımızı mətanətlə irəliyə, daha xoşbəxt gələcəyə aparmaqdadır.

**Daim yüksəklərdə olasan, Azərbaycan bayrağı!**

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***